# Astarada Heydər Əliyevin 100 illiyinə həsr olunmuş elmi-praktiki konfrans

**Astarada Azərbaycan Ürək və Sağlamlıq Assosiasiyası, Azərbaycan Kardiologiya, Azərbaycan Ürək və Damar Cərrahiyyəsi cəmiyyətlərinin və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr edilmiş "Ekspertlərin zirvə görüşü" regional tibbi-elmi konfrans keçirilmişdir.**



Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev, Azərbaycan Ürək və Sağlamlıq Assosiasiyasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Rəşad Mahmudov, TƏBİB-in icraçı direktorunun müavini Araz Nəsirov, YAP İdarə Heyətinin üzvü, professor Tofiq Cahangirov, Azərbaycan Kardiologiya Cəmiyyətinin sədri Ülvi Mirzoyev, peşəkar invaziv kardioloq, kardio - cərrah həkimlər və digər qonaqların iştirak etdikləri konfrans işinə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarətlə başlamışdır. Konfransda çıxış edən Q.Ağayev qeyd etmişdir ki, "Heydər Əliyev İli" çərçivəsində Astarada da silsilə tədbirlər keçirilmişdir: "Bu tədbirlərdə müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, görkəmli siyasi və dövlət xadimi Ümummilli Lider Heydər Əliyevin mənalı ömür yolu və zəngin fəaliyyətindən danışılmışdır. Azərbaycanın beynəlxalq səviyyədə tanınması, dünya dövlətləri tərəfindən etibarlı tərəfdaş kimi qəbul edilməsi, bugünkü yüksək inkişaf, Ulu Öndərin siyasətinin davamı olmaqla Prezident İlham Əliyevin yorulmaz fəaliyyəti ilə bağlıdır. Azərbaycan bugün heç vaxt olmadığı qədər ən yüksək inkişaf dövrünü yaşayır".

Tibb alimləri, yüksək ixtisaslı, təcrübəli həkimlər ürək-damar xəstəliklərinin müalicəsində tibb elminin nailiyyətləri barədə iştirakçıların məlumatlandırıldığı konfransda, həmçinin regionda fəaliyyət göstərən kardioloq və terapevt ixtisaslı həkimlərlə ürək-damar xəstəliklərinin müalicə və profilaktikasındakı yeniliklər, ölkəmizdə və dünyadakı mövcud vəziyyət, çətinliklər və onların həlli yolları müzakirə olunmuşdur.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2023.- 28 dekabr (№ 285).- S.9.